# Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır

**Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı İlham Əliyev bir daha bildirmişdir ki, heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, yeni təşəbbüslər haqqında fikirləşirik**



Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ötən dövrün sosial-iqtisadi göstəriciləri fonunda bir daha bildirdi ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, yeni təşəbbüslər haqqında fikirləşirik. Yoxsulluq və işsizlik problemlərinin həlli istiqamətində atılan biri-birindən əhəmiyyətli addımlar və onların uğurlu nəticələri, aztəminatlı ailələrin ünvanlı yardım proqramından bəhrələnməsi də deyilənlərin əyani sübutudur. Dövlətimizin başçısı iclasda bu məqama xüsusi diqqət yönəltmişdir: "Ünvanlı sosial yardım proqramında çox müsbət dəyişikliklər baş vermişdir. Şəffaflıq təmin olunur, normal qayda-qanun yaradılır, xoşagəlməz hallara son qoyulur, korrupsiya ilə mübarizə ciddi aparılır və bunun hesabına artıq bu sahədə daha da sağlam vəziyyət yaranmışdır. Yerlərdən gələn məlumat da məni çox sevindirir, insanlar da bu müsbət dəyişiklikləri görürlər."

Ünvanlı sosial yardım alan insanların sayı təxminən 20 faiz azalıb. Cənab İlham Əliyev bunu belə əsaslandırmışdır: "Ona görə yox ki, kiminsə yardımı kəsilib. Ona görə ki, yardıma ehtiyacı olmayan artıq bunu almır. 112 min ailə, 490 min insan bu yardımı alır və hər ailəyə orta hesabla təxminən hər ay 150 manat pul verilir. Bax, budur bizim sosial siyasətimiz və yanaşmamız."

2008-ci ildən dünyanı bürüyən və nəticələri bu günə qədər davam edən iqtisadi və maliyyə böhranından Azərbaycanın uğurla çıxmasını şərtləndirən əsas amil məhz iqtisadiyyatın düzgün əsaslar üzərində qurulmasıdır. Ölkə iqtisadiyyatının inkişafında neft-qaz amilinin rolunu xüsusi önə çəkən dövlətimizin başçısı İlham Əliyev eyni zamanda bu məqsədi açıqlamışdır ki, iqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır. Bu sahəyə diqqətin bariz göstəricisi bu gün ÜDM-də özəl bölmənin payının 85 faiz təşkil etməsidir. Cari ilin ötən dövründə qeyri-neft sektoru 9,2 faiz artıb. 60 minə yaxın yeni iş yeri açılıb ki, onlardan 48 mini daimi iş yeridir. Dövlətimizin başçısı İlham Əliyev uğurlarımızı şərtləndirən amilləri açıqlayaraq bildirmişdir: "Çünki bizim düşünülmüş siyasətimiz var. Bizim proqramlarımız reallıq üzərində qurulubdur. Hər bir məsələ, hər bir sahə ilə bağlı çox konkret fəaliyyət planı var - regionların inkişafı, işsizliyin aradan qaldırılması, sənayeləşmə, kənd təsərrüfatının inkişafı."

Ölkəmizin iqtisadi inkişafı maliyyə imkanlarının genişlənməsini şərtləndirir ki, bu da mühüm sosial-iqtisadi layihələrin icrasını sürətləndirir. Cənab İlham Əliyev 2003-cü ildə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra keçirilən andiçmə mərasimində əmək haqlarının, pensiyaların ildə ən azı iki dəfə artırılmasını qarşıya mühüm vəzifə kimi qoymuşdur. Bunun üçün zəruri olan imkanların mövcudluğu da diqqətə çatdırılmışdır. 2004-cü ildə Azərbaycanda orta aylıq əməkhaqqı 100 dollar idisə, hazırda bu rəqəm 600 dollara yaxındır. Orta aylıq pensiya 24 dollar idi, hazırda 200 dollardan artıqdır. Son 12 ildə bir milyon 400 min yeni iş yeri yaradılıb ki, bunun da bir milyonu daimi iş yeridir. Azərbaycanda sosial infrastruktur layihələri son on iki ildə uğurla icra edilib.

Neft gəlirlərindən səmərəli istifadəni təmin etmək məqsədilə yaradılan Dövlət Neft Fondunun vəsaitlərinin yönəldildiyi istiqamətlərdən biri də qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllidir. Nazirlər Kabinetinin iclasında dövlətimizin başçısı İlham Əliyev bu məsələyə də toxunmuşdur: "Köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu sahədə lazımı tədbirlər görülür, həm Dövlət Neft Fondunun xətti ilə vəsait ayrılır, yeni binalar tikilir, eyni zamanda, dövlət büdcəsində güzəştlər nəzərdə tutulub. Bu məsələ daim diqqət mərkəzindədir. Çalışmalıyıq ki, köçkünləri gələcəkdə də maksimum dərəcədə tezliklə yaxşı mənzillərə, evlərə köçürək. Bilirsiniz ki, hər il orta hesabla 20 min insan artıq yeni mənzillərə köçürülür." Bu rəqəmlər açıqlanmışdır ki, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün cari ilin altı ayında icmal və dövlət büdcələrindən birgə 201,0 milyon manat, o cümlədən dövlət büdcəsinin cari və əsaslı xərclərindən 111,0 milyon manat, Dövlət Neft Fondunun büdcəsindən 90,0 milyon manat vəsait ayrılıb.

Statistik rəqəmlər bu gün ölkəmizin inkişafın hansı səviyyəsində olduğuna aydınlıq gətirir. Cənab İlham Əliyev bildirir ki, bu statistik rəqəmlərə baxdıqda hər kəs görə bilər ki, biz nə qədər böyük yol keçmişik: "Deyə bilərəm ki, heç kim bizə kömək etməmişdir. İndi dünyanın hətta inkişaf etmiş ölkələri xarici yardımdan bəhrələnmək istəyirlər. Xarici yardım olmadan o iqtisadiyyatlar çökür, defolt vəziyyətinə düşür. Qapı-qapı gəzirlər, yalvarırlar ki, onlara vəsait ayırsınlar. İndi yəqin ki, özlərini bir növ o qədər də rahat hiss etmirlər."

Azərbaycan bu gün qurucuKluq meydançasını xatırladır. Hazırda bütün bölgələr arasında sağlam rəqabət gedir. Görülən işlər bir daha bu reallığı ortaya qoyur ki, dövlətin həyata keçirdiyi siyasətin önündə vətəndaş amili dayanır. İnsanların rahat, əmin-amanlıq şəraitində, təhlükəsiz yaşaması əsas məsələlərdəndir. Azərbaycan xalqının təhlükəsizlik şəraitində yaşadığını xüsusi vurğulayan dövlətimizin başçısı İlham Əliyev diqqəti bir neçə il bundan əvvəl dünyanı bürümüş iqtisadi və maliyyə böhranına yönəldərək bildirir ki, böhran, eyni zamanda bölgədə baş verən xoşagəlməz hadisələr, toqquşmalar Azərbaycanın uğurlu inkişafına təsir etməmişdir: "Bunun başlıca səbəbi Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidar arasındakı birlikdir və bizim bütün proqramlarımızın uğurla icrasıdır. Azərbaycanın apardığı xarici və daxili siyasət xalq tərəfindən dəstəklənir və əminəm ki, bu il də görüləcək işlər nəticəsində Azərbaycan daha da güclənəcək."

Əvvəldə də qeyd etdiyimiz kimi, iqtisadi tərəqqi güclü sosial siyasət üçün əsas yaradır, eyni zamanda qarşıya qoyulan məqsədlərə nail olmaq, təşəbbüsləri gerçəkləşdirmək üçün stimulverici amil rolunu oynayır. Azərbaycanın hazırda hərtərəfli inkişafının təmin edilməsində də konkret Dövlət Proqramlarının icrası və bu sənədlərin ayrı-ayrı sahələri əhatə etməsi dayanır. Dövlətimizin başçısı İlham Əliyevin daim qeyd etdiyi kimi, iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması uğurlara geniş yol açır. "Gələcəkdə neft amilinin ümumi daxili məhsulumuzda aşağı düşməsi nəticəsində ölkə iqtisadiyyatının neft amilindən asılılığı daha da azalacaqdır. Bu, bizim vəzifəmizdir. Mən həmişə demişəm, bu gün də demək istəyirəm ki, neft-qaz amili bizim üçün bir vasitədir. Bu, inkişaf etmək, dayanıqlı və çoxşaxəli iqtisadiyyat qurmaq üçün bir vasitədir. Biz bu vasitədən səmərəli istifadə edirik" söyləyən cənab İlham Əliyev qeyri-neft sektorunun inkişafı istiqamətində addımların davamlı olacağını bildirir. Regional inkişaf proqramlarının uğurlu icrası bu məqsəddən irəli gəlir. Ölkə Prezidenti bildirir ki, biz regionların sosial-iqtisadi inkişafına dair üçüncü proqramı da 2018-ci ilə qədər uğurla icra etməliyik. Proqramı icra etmək üçün bütün cəmiyyət səfərbər olmalıdır və əminəm ki, biz buna nail olacağıq. Ölkə Prezidentinin nitqlərində diqqət yönlətdiyi məsələlərdən biri budur ki, iqtisadi, maliyyə böhranı ilə bağlı bizi qarşıda daha da böyük sınaqlar gözləyə bilər. Ancaq biz bütün bu çağırışlara hazır olmalıyıq və hazırıq: "Biz vaxtında bütün tədbirləri görmüşük, heç vaxt populist bəyanatlarla çıxış etməmişik, heç vaxt xaricdə yerləşən hansısa quruma xoş gəmək üçün addım atmamışıq." Atılan hər bir addımda məqsəd ölkəni inkişaf etdirmək, əhalisinin rifah halını daha da yaxşılaşdırmaqdır. Bir sözlə, iqtisadi tərəqqi, yüksək rifah və quruculuq dövlət siyasətinin əsasını təşkil edir. Ulu öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisi bu gün də öz aktuallığını qorumaqdadır. Dövlətimizin başçısı İlham Əliyev bildirir ki, bəşəriyyətin üzləşdiyi qlobal problemlər ənənəvi iqtisadi və sosial inkişaf modelinə yenidən baxmağı tələb edir. Gələcək nəsillərin inkişaf və rifah içində yaşaması bugünkü çağırışlara düzgün cavabların tapılmasından çox asılıdır. Hazırkı dövrün əsas çağırışlarından birinin yoxsulluqla mübarizə olduğu önə çəkilərək Azərbaycanın bu istiqamətdə qazandığı uğurlar daim təqdir edilir. Bu gün ölkəmizdə yoxsulluq həddinin 5 faiz səviyyəsində olması Dövlət Proqramlarının uğurlu icrasının nəticəsidir. Məlum olduğu kimi, "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)"nın ardınca "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" icra olunur.

İnkişafın Azərbaycan modelinin mövcudluğu beynəlxalq səviyyədə dəstəklənirsə, bu, dövlətimizin uğurlu sosial-iqtisadi siyasətinin nəticəsidir. Düşünülmüş və planlı şəkildə aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanı dinamik inkişaf edən güclü, qüdrətli bir dövlətə çevirmiş, nüfuzlu və etibarlı tərəfdaş kimi dünyada tanıtmışdır. Uğurlarımızın fonunda cənab İlham Əliyev bu fikri böyük inam və qətiyyətlə bildirir: "Bu gün dünyada nadir Azərbaycan inkişaf modeli var. Artıq biz bu barədə də danışa bilərik, çünki bu model, doğrudan da, bir nümunə kimi hər bir ölkə üçün maraqlı olmalıdır. Siyasi, iqtisadi islahatlar, müstəqil siyasət, dinlərarası dialoq, yüksək səviyyəli milli dini tolerantlıq, dözümlülük, sosial siyasət və görülən işlər göz qabağındadır. Bunu dost görür sevinir, düşmən gəlib görəndə kefi pozulur. Biz bundan sonra da elə işləməliyik ki, xalqımız, dostlarımız sevinsin, düşmənin pis niyyəti gözündə qalsın. Əminəm ki, belə də olacaq, Azərbaycan bundan sonra da uğurla inkişaf edəcəkdir."

**Yeganə Əliyeva,**
***"İki sahil"***